ETEL LILIAN VOYNIÇ

# OVOD

Tərcüməçi:
Beydulla Musayev

qanun nəşriyyatı

Ethel Lilian Voynich

# THE GADFLY

XIX əsrin 30-cu illəri. İtalyanlar işğalçı Avstriya imperiyasına qarşı üsyana qalxırlar. Üsyanın iştirakçılarından biri Artur Bertondur. "Ovod" təxəllüsü ilə kəskin yazılar yazan bu idealist gənc öz xalqının azadlığı uğrunda canından keçməyə hazır olan inqilabçıya çevrilir. Yorulmadan, usanmadan düşmənlə mübarizə aparır. Hətta haqqında çıxarılan ölüm hökmünün dəyişdirilməsi təklifi də onu tutduğu yoldan döndərə bilmir...

Bu mübariz gəncin qəlbində, həm də şəxsi faciələrin açdığı yaralar var: doğmaların onu intihara sürükləyən yalanı və bütün həyatını qaraldan cavabsız sevgisi...

**Ethel Lilian Voynich THE GADFLY**
**Etel Lilian Voyniç OVOD**

Janr: roman
Yaş qrupu: 15+
Ölçü: 145x210 mm
Cild: yumşaq
Səhifə sayı: 336

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: Beydulla Musayev
Mətn dizaynı: Rahilə Şamilqızı
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-26-619-1

© Qanun Nəşriyyatı, 2020; 2022; 2024; 2026
© Gənclik, 1986

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

# BİRİNCİ HİSSƏ

## BİRİNCİ FƏSİL

Artur Pizada[1] ruhani seminariyası kitabxanasında bir yığın dini moizələr əlyazmasını gözdən keçirirdi. İsti iyun axşamıydı. Pəncərələr taybatay açıqdı, pərdələr salınmışdı. Seminariyanın rektoru, kanonik[2] Montanelli qələmi yerə qoyub, Arturun kağız vərəqləri üzərinə əyilmiş qara saçlı başına məhəbbətlə baxdı.

– Əzizim, tapa bilmirsən? Qoy qalsın. Təzədən o yeri yazaram. Yəqin vərəq harasa düşüb, sən də nahaq yerə onu bu qədər axtardın.

Montanellinin dolğun, gur, aydın, ahəngdar səsi vardı. Bu ahəngdarlıq onun danışığına xüsusi məlahət verirdi. Onun oynaq və çalarlı zəngin səsində anadangəlmə natiqlik hiss olunurdu. Hər dəfə Artura müraciət edərkən Montanellinin səsində tükənməz bir nəvaziş duyulurdu.

– Taparam, padre[3]. Yəqin bilirəm ki, o buradadır. Siz onu təzədən yazsanız da, əvvəlki kimi çıxmayacaq.

---

[1] Piza – Toskana vilayətində bir şəhər, italyan mədəniyyətinin ən böyük mərkəzlərindən biri

[2] Kanonik – katolik kilsəsində rəsmi qulluqda olan keşiş

[3] Padre (ital.) – ata (italyanlar keşişə belə müraciət edirlər)

Montanelli yarımçıq qoyduğu işinə yenidən başladı. Bayırda yuxulu may böcəyi yeknəsəq səslə vızıldayırdı. Bu arada: "Fragola! Fragola!"[1] – deyə çığıran meyvə alverçisinin uzun-uzadı eşidilən həzin səsi küçənin sükutunu pozdu.

– "Cüzam xəstəliyinə tutulmuş adamın sağalması haqqında[2]". Budur, tapdım!

Artur səssizcə Montanelliyə yaxınlaşdı, – onun bu cür yerişi həmişə evdəkiləri əsəbiləşdirirdi. Bu balacaboylu, zərif görünüşlü gənc, otuzuncu illərdə ortabab ingilis ailəsindən çıxmış bir adamdan çox, on altıncı əsrdə yaşamış italyana oxşayırdı. Onun uzun qaşları, qəzəb ifadə edən titrək dodaqları, əlləri, ayaqları çox zərif və qəşəngdir. Sakit oturanda onu, kişi paltarı geymiş qəşəng bir qıza oxşatmaq olardı; lakin o, çevik hərəkətləriylə, caynaqlarını gizlədən, əhliləşdirilmiş bir bəbiri xatırladırdı.

– Doğrudan tapdın? Artur, heç bilmirəm sənsiz neylərdim?! Əlimdəki şeyləri həmişə itirərdim. Daha bəsdir… Bununla qurtarıram, hələlik daha yazmayacağam. Gedək bağa, aydın olmayan şeyləri sənə izah edim. Sənin başa düşmədiyin nədir?

Onlar sakit və kölgəli monastır bağına getdilər. Seminariya qədim Dominikan[3] monastırının binasında yerləşirdi. İki yüz il bundan əvvəl onun dördbucaqlı həyəti çox səliqəli saxlanılırdı. Səliqə ilə qayçılanmış kollarda rozmarin və lavanda bitərdi. Amma indi elə deyildi… Vaxtilə bu bitkilərə qulluq eləyən ağ geyimli monaxlar çoxdan ölüb-getmiş və unudulmuşdular. Doğrudur, çiçəkli otlar xoş yay günlərində, yay axşamlarında yenə də ətir saçırdı, amma daha heç kəs onların toxumunu dərman üçün toplamırdı. Yabanı otlar sal daşların yarıqlarını tutmuşdu. Həyətin ortasında olan su quyusunu çayır basmışdı. Qızılgüllər yabanılaşmış, onların bir-birinə dolaşan nazik zoğları sürünərək cığırlara yayılmışdı. Lələr-

[1] Fragola (ital.) – çiyələk

[2] "İncil"də İsanın cüzam xəstəliyinə tutulmuş adamı sağaltması haqqında bir rəvayət var.

[3] Dominikan – monax cəmiyyəti. XIII əsrdə ispaniyalı vaiz Dominik tərəfindən "dinsizlər" və azadfikirli adamlarla mübarizə üçün təsis edilmişdi.

də iri al lalələr qızarırdı. Hündür çadır çiçəkləri bir-birinə dolaşmış otların üzərinə əyilmişdi. Cırlaşmış, daha bar verməyən qoca tənəyin budaqları, başlı-başına buraxılmış kasayarpaq ağacı budaqlarından sallanırdı; bu ağacın sıxyarpaqlı başı ağır-ağır, qəmli-qəmli yellənirdi. Bağın bir tərəfində böyük bir maqnoliya ağacı bitmişdi; onun tünd-yaşıl yarpaqları arasından süd kimi ağ çiçəkləri nəzərə çarpırdı; bu çiçəklər, rəssam əlilə çəkilmiş rəngli şəkillərə bənzəyirdi. Maqnoliya ağacı altında kobud taxta skamya vardı. Montanelli bu skamyada oturdu.

Artur universitetdə fəlsəfəni öyrənirdi. Çətinliyə rast gələndə həmişə izahat üçün Montanelliyə müraciət edirdi. O, heç seminariyada oxumamışdı, lakin Montanelli elmin hər sahəsində onun üçün nüfuz sahibi idi.

Rast gəldiyi çətinlik izah edildikdən sonra Artur dedi:

– İndi mən gedim. Ya bəlkə sizə lazımam?

– Yox. Hələlik işimi qurtarmışam, amma istərdim ki, bir az yanımda olaydın, elə-belə, iş olmasa da. Vaxtın varmı?

– Əlbəttə, var!

Artur başını geri ataraq ağac gövdəsinə söykəndi, sıx budaqlar arasından, buludsuz göyün dərinliklərində: zəif-zəif sayrışan ilk ulduzlara baxmağa başladı. Onun qara kirpikləri arasından xəyali dalğınlıqla baxan, sirr dolu mavi gözləri anasının gözlərinə oxşayırdı. Arturun anası, Kornuell[1] əyalətindən idi. Montanelli bu gözlərə baxa bilmirdi.

– Əzizim, sən nə yaman yorğun görünürsən!

– Nə eləyim ki?

Arturun səsində yorğunluq hiss olunurdu. Montanelli dərhal bunu duydu.

– Məşğuliyyətini təzədən başlamağa nahaq belə tələsirsən. Ananın xəstəliyi, yuxusuz gecələr, məlum şeydir ki, səni yorub əldən

[1] Kornuell – İngiltərədə bir əyalət

salmaya bilməzdi. Livornodan[1] yola düşməzdən qabaq sən uzun zaman dincəlməlisən.

– Ah, padre, bunun nə əhəmiyyəti? Anamın ölümündən sonra bu evdə qalmağa daha taqətim yoxdur. Yuliya axırda məni lap dəli eləyəcək.

Yuliya onun böyük ögey qardaşının arvadı idi: Arturun həyatını zəhərləmək üçün o hər şeydən istifadə edirdi.

Montanelli nəvazişlə dedi:

– Sən qohumlarının yanında nahaq yerə qalırsan. Şübhəsiz, sənin üçün bundan pis şey ola bilməz. Amma sən öz dostun doktorun yanına gedə bilərsən. Orada bir ay qalarsan, sonra yenə də işləməyə gücün olar.

– Yox, padre, doğrusu, gedə bilmərəm! Uorrenlər yaxşı, səmimi adamdır, ancaq məni başa düşmürlər. Mənim başıma gələn müsibətə ürəkdən yanırlar – bunu üzlərindəki ifadədən görürəm. Başlayacaqlar təsəlli verməyə – anamdan danışacaqlar… Cemma, əlbəttə, belə deyil… o həmişə nədən danışıb-danışmayacağını qəlbi ilə duyur; biz balaca olanda da o belə idi. Başqaları onun kimi həssas deyil. Bir də ki, elə ancaq bu deyil…

– Daha nədir, oğlum?

Artur əyilmiş çadırçiçəyi budağından bir neçə çiçək qoparıb, əsəbi halda didməyə başladı.

Bir az susduqdan sonra dedi:

– Mən o şəhərdə yaşaya bilmərəm. Orada mağazalar var, – bu mağazalardan anam həmişə mənə oyuncaq alardı; orada sahil küçəsi var, xəstələnməmişdən qabaq onunla bu sahildə gəzərdim. Hara getsəm, hər yer elə… Yenə əvvəlki kimi, bazarda gülsatan qızlar mənə yaxınlaşıb gül təklif edirlər… Elə bil ki, indi mənə gül lazımdır!.. Sonra da o qəbiristanlıq… yox, ora gedə bilmərəm, bu şeyləri görməyə dözə bilmirəm…

Artur susdu. O dalğın halda əlindəki zəngçiçəyini xırda-xırda qoparıb tökürdü. Onlar xeyli danışmadı. Bu hal o qədər üzücü idi

---

[1] Livorno – Liquriya dənizi sahilində, Pizanın yaxınlığında bir liman şəhəri

ki, axırda Artur Montanellinin danışmamasına heyrət etdi. Axşam qaranlığı maqnoliyanın budaqları altında get-gedə qatılaşırdı. Qaranlıq hər yeri bürüyürdü. Hər şey qəribə bir şəkil alırdı; lakin hava hələ o qədər qaralmamışdı ki, Montanellinin meyit kimi ağarmış üzünü görmək mümkün olmasın. O, başını aşağı salıb, sağ əli ilə skamyanın qırağından bərk-bərk tutmuşdu. Artur bu böyük qəlbli insanın qarşısında pərəstişkaranə bir heyrətlə üzünü yana çevirdi.

Düşünərək öz-özünə dedi: "İlahi, mən nə qədər xırdaçıyam, xudbinəm! Mənim dərdim onda olsaydı, o daha dözümlü olardı ".

Montanelli başını qaldırıb ətrafına baxdı. Sonra mehribanca dedi:

– Yaxşı, sənin ora getməyini təkid etməyəcəm. Sonrasını bilmirəm, hər halda indi. Ancaq mənə söz ver ki, yaxşı dincələcəksən, yay tətilindən öz sağlamlığın üçün istifadə edəcəksən. Məncə, Livornodan uzaqda olsan yaxşıdır. İstəmirəm ki, sən lap naxoşlayasan.

– Padre, seminariya bağlananda siz hara gedəcəksiniz?

– Mən yenə də, həmişəki kimi, tələbələri dağlara aparıb, yerbəyer eləməliyəm. Avqustun ortalarında rektorun köməkçisi məzuniyyətdən qayıdacaq. Onda mən işdən azad olacağam, havamı dəyişmək üçün bir qədər Alp dağlarını gəzəcəyəm. Bəlkə sən də mənimlə getdin? Biz bir yerdə uzun bir dağ seyrinə çıxardıq, sənin də əlinə Alp mamırı ilə məşğul olmaq üçün çox gözəl fürsət düşərdi. Ancaq qorxuram ki, mənimlə darıxasan.

– Padre! – Artur, Yuliya deyən kimi, "hisslərini gizlətməyən bir əcnəbi kimi" əlini əlinə çırpdı. – Sizinlə getmək üçün dünyada nəyim varsa, hamısını verərdim. Ancaq… əmin deyiləm ki…

Sözünü qurtarmadı.

– Demək istəyirsən ki, mister Berton sənə icazə verməz?

– Əlbəttə, o buna etiraz edər, amma bu məni yolumdan saxlaya bilməz. İndi mənim on səkkiz yaşım var, istədiyim kimi hərəkət edə bilərəm. Bir də ki, o mənim ancaq ögey qardaşımdır. Nə üçün mən onun arzusuyla hesablaşmalıyam?..

– O ciddi etiraz etsə, yaxşı olar ki, sözündən çıxmayasan. Evdə vəziyyətin daha da pisləşər, əgər…

– Qətiyyən! – Artur hərarətlə onun sözünü kəsdi. – Onlar məni heç sevməyiblər, nə eləsəm, yenə də sevməyəcəklər. Bir də axı, sizinlə – ruhani atamla gedirəm. Ceyms buna necə razı olmaya bilər?

– Unutma ki, o, protestantdır[1]. Hər halda ona yazıb bildirmək lazımdır. Gözləyək, görək nə deyir. Oğlum, səbirli ol! Bizi sevirlərmi, ya bizə nifrətmi edirlər – öz hərəkətimizdə gərək bunu əsas tutmayaq.

Mülayimcə söylənilən bu sözlər Artura təsir etdi. O, azca qızardı.

Ah çəkərək dedi:

– Bəli, bunu bilirəm. Ancaq bunu yerinə yetirmək çox çətindir.

Montanelli söhbəti dəyişdi:

– Bilirsənmi, çərşənbə axşamı yanıma gələ bilmədiyinə çox təəssüf etdim. Artesso yepiskopu burada idi, mən istərdim ki, onu görəydin.

– Həmin gün bir tələbənin yanına getməyə söz vermişdim. Onun mənzilində yığıncaq vardı, məni gözləyirdilər.

– Nə yığıncaq?

Artur bir az karıxdı.

– Bu… buna heç yığıncaq da demək olmazdı, ancaq… – Əsəbi halda kəkələyib sözünü dəyişdi. – Cenevrədən bir tələbə gəlmişdi, nitq söylədi. Bu, nitqdən daha çox bir mühazirə idi.

– Nə barədə?

Artur özünü itirdi:

– Padre, siz o tələbənin adını soruşmayacaqsınız ki? Söz vermişəm ki…

– Mən heç bir şey soruşmuram. Sən sirri saxlamağa söz vermisənsə, onda gərək söyləməyəsən. Ancaq, güman edirəm ki, mənə inana bilərsən.

---

[1] Katoliklərlə protestantlar uzun zaman bir-biriylə qanlı müharibələr etmişlər. XIX əsrdə onların arasında çox böyük düşmənçilik olub.